Respublika.- 2022.- 28 iyul. S. 6.

*Bütün həyatını neft və qaz yataqlarının işlənməsinə həsr edən azərbaycanlı geoloq Fərman Salmanovun adı dünya neft tarixinə Tümenin zəngin təbii sərvətlərinin ilk kəşfiyyatçılarından biri kimi daxil olmuşdur. O, heç bir neft ehtiyatının olmadığı iddia edilən Qərbi Sibirdə 1961-ci ildə ilk neft yataqlarını üzə çıxarmışdır. Fərman Salmanovun rəhbərliyi ilə karbohidrogen ehtiyatları ilə zəngin yüzdən artıq irihəcmli yataq kəşf edilərək istismara verilmişdir. Məhz həmin yataqların işlənilməsi sayəsində keçmiş Sovetlər İttifaqı dünyanın ən çox neft və qaz ixrac edən ölkələri sırasına qoşulmuşdu.*



# Özünəinam, işinə sadiqlik nümunəsi

Görkəmli neftçi, mühəndis-geoloq, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət mükafatı laureatı, Rusiya Elmlər Akademiyasının müxbir üzvü, geologiya-mineralogiya elmləri doktoru Fərman Qurban oğlu Salmanovun taleyi özünə möhkəm inam, işinə sadiqlik nümunəsidir.

Fərman Salmanov 1931-ci il iyulun 28-də Şəmkir rayonunun Morul kəndində anadan olmuşdur. Orta məktəbi başa vurduqdan sonra Azərbaycan Sənaye İnstitutunda ali təhsil alaraq 1954-cü ildə həmin institutun geoloji kəşfiyyat fakültəsini bitirmişdir. 1955-ci ildə Azərbaycandan olan gənc geoloq Fərman Qurban oğlu Salmanov Kuzbasa neft axtarmağa göndəriləndə ağlına belə gətirməzdi ki, gələcəkdə Sibir neftini ilk dəfə o kəşf edəcək. O, tezliklə Kuzbasın heç bir neftlilik-qazlılıq potensialının olmadığı qərarına gəlir və Sovet rəsmilərinin icazəsi olmadan kəşfiyyat qrupundan olan könüllülərlə Sibirin Surqut bölgəsinə getməyi qərara alır. O vaxt Sovet geoloji dairələrində Sibir perspektivsiz ərazi kimi təqdim edilirdi. Rəsmi dairələr F.Salmanovun bu qərarına görə ona qarşı cinayət işi qaldırmaq istəyirlər, lakin komandasının tətil hədə-qorxuları hakimiyyət dairələrinin missiyaya razılıq verməsi ilə nəticələnir. F.Salmanov 1961-ci ildə Megion yatağını kəşf edir. Yataqda qazılmış ilk kəşfiyyat quyusu neft fontanı verir.

O, ömrünün 50 ilini Sovet İttifaqı və Rusiya Federasiyasının neft-qaz sənayesinə həsr etmiş, 100-dən artıq nəhəng neft-qaz yatağının kəşfində iştirak etmişdir. Belə nəhəng yataqlardan Mamontov, Megiyon, Pravdinsk, Üst-Balıq, Surqut, Urengoy, Yamburq və s. misal göstərmək olar. 1978-ci ildən 1987-ci ilə qədər F.Salmanov Tümen vilayətinin neft-qaz kəşfiyyatı idarəsi "Qlavtumengeologiya"ya rəhbərlik etmişdir. 1987-1991-ci illərdə SSRİ Geologiya nazirinin birinci müavini işləmişdir. Ömrünün son dövründə isə Rusiyanın "İtera Qaz Şirkəti" prezidentinin məsləhətçisi kimi çalışmış, eləcə də "Yuqneftqaz" Cəmiyyəti Direktorlar Şurasının sədri olmuşdu. Görkəmli geoloq 160-dan artıq monoqrafiya və elmi əsərlərin müəllifidir. O, Xanti-Mansi və Yamalo-Nenets Muxtar dairələrinin, Surqut şəhəri və Texas ştatının fəxri vətəndaşı seçilmişdir. F.Salmanovun şəxsiyyətində tədqiqatçı-alim səriştəsi, peşəkar neftçi istedadı, dövlət və ictimai xadim təcrübəsi vəhdət təşkil edirdi. Onun neft və qaz geologiyası sahəsində fundamental axtarışlarının nəticələri mütəxəssislər tərəfindən daim yüksək qiymətləndirilib və ixtisaslı neftçi kadrların yetişdirilməsində mühüm rol oynayıb. Fərman Salmanovun ictimai xadim kimi fəaliyyəti zəngin və təqdirəlayiq idi. Ayrı-ayrı illərdə Azərbaycanın və Rusiyanın ali məclislərinin deputatı olmuş Fərman Salmanov iki ölkə arasında əlaqələrin möhkəmləndirilməsi işinə kömək göstərmiş, Rusiyada Azərbaycan diasporunun formalaşdırılması və inkişaf etdirilməsində böyük əmək sərf etmişdir. Ulu öndər Heydər Əliyev dünyaşöhrətli geoloqun fəaliyyətini hər zaman diqqət mərkəzində saxlayıb, Prezident İlham Əliyev dəfələrlə onunla görüşüb və xidmətlərini yüksək qiymətləndirib.

Dünyaşöhrətli neftçi, mühəndis-geoloq, Sosialist Əməyi Qəhrəmanı Fərman Salmanov 2007-ci il martın 31-də ömrünün 76-cı ilində vəfat edib. Fərman Salmanovun məzarı Moskvanın Fəxri Xiyabanı sayılan Vaqankovsk qəbiristanlığındadır. O, yalnız karyerasını deyil, həm də həyatını risk altına qoyaraq uzaq Sibirdə ilk neft yataqlarını kəşf edib. Bugünkü Rusiya durduqca ona minnətdar olmalıdır. F.Salmanov keçmiş SSRİ-nin orden və medallarına, Rusiya Federasiyasının "Əməkdar geoloq"u fəxri adına, Azərbaycanın "Şöhrət" ordeninə layiq görülmüşdü.

2019-cu ildə Rusiyanın Surqut şəhərinin hava limanına Fərman Salmanovun adı verilib. Prezident İlham Əliyevin Fərmanı ilə 2019-cu ildə Fərman Salmanov adına tələbə təqaüdü təsis olunub, təhsil aldığı məktəbə onun adı verilib, doğulduğu Şəmkir şəhərində abidəsi ucaldılıb. Onun haqqında kitablar yazılıb, onlarla sənədli və bədii film çəkilib. Şəninə bəstələnən mahnıları ən tanınmış müğənnilər ifa edib. SSRİ-nin demək olar ki, bütün Ali mükafatlarına layiq görülüb. Rusiyanın bir çox şəhərlərində adına küçə və prospektlər, ali və orta məktəblər, elmi mərkəzlər, onun adını daşıyan gəmilər var. Moskva, Surqut, Xantı-Mansiyskdə onun abidələri ucaldılıb. Surqutda Fərman Salmanov adına gimnaziya və küçə, neft yatağı var. Rusiyanın "UTair" aviaşirkətinin iki təyyarəsi həmvətənlimizin adını daşıyır.

Mustafa KAMAL,
"Respublika".